# Meşələr milli sərvətimizdir, onları qoruyaq!

## *Son vaxtlar meşə yanğınlarının artması narahatlıq doğurur*



**Son günlər havaların kəskin isti keçməsi təkcə meteohəssas insanlar üçün deyil, təbiətin "ağ ciyəri" sayılan meşələr üçün də təhlükə yaradıb. Son vaxtlar ölkəmizdə tez-tez meşə yanğınları baş verir ki, bu, ciddi narahatlıq doğurmaya bilməz.**

Meşə yanğınları ilə əlaqədar ən son xəbərlərdən birini diqqətinizə çatdırmaq istərdim. ATV.az saytı yazır ki, iki gün əvvəl Fövqəladə Hallar Nazirliyinə (FHN) Oğuz rayonunun Baş Daşağıl kəndi yaxınlığında dağlıq ərazidəki meşədə yanğın olması barədə məlumat daxil olub. Yanğının söndürülməsinə FHN-nin Dövlət Yanğından Mühafizə Xidmətinin şəxsi heyəti və Aviasiya dəstəsinin "BE 200 ÇS" tipli amfibiya təyyarəsi və iki ədəd helikopteri cəlb edilib.

Yenə həmin xəbərdə deyilir ki, Şəkidə dağlıq ərazidə baş verən yanğın isə artıq söndürülüb. Hadisə nəticəsində rayonun Təpəcənnət kəndində dağlıq ərazidə 200 hektar sahədə kol-kos və quru ot yanıb. Yaxınlıqdakı meşə massivi yanğından mühafizə olunub.

Qeyd etmək lazımdır ki, heç bir ölkə meşə yanğınlarından sığortalanmayıb. Hazırda dünyanın bir çox ölkələrində meşə yanğınları tüğyan edir. Planetin 20 faizini oksigenlə təmin edən Amazon meşələri bu günlərdə yanır. Qonşu Rusiyada, Gürcüstanda, Türkiyədə də meşə sahələrində yanğınlar var və bəzi ölkələrdə yanğınlara görə hətta fövqəladə vəziyyət elan edilib.

Bu arada Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) mətbuat katibi İradə İbrahimova jurnalistlərə açıqlamasında deyib ki, görülmüş qabaqlayıcı tədbirlər nəticəsində ölkəmizdə geniş miqyaslı meşə yanğınları baş verməyib. İradə xanım bir daha vətəndaşları ehtiyatlı olmağa, yanğın təhlükəsizliyi qaydalarına həssas yanaşmağa çağırıb.

ETSN rəsmisinin narahatlığı başadüşüləndir. Belə ki, meşə yanğınlarının səbəbləri ilə bağlı araşdırmalar göstərir ki, yanğınların böyük əksəriyyəti insanların səhlənkarlığı, bəzi hallarda bilərəkdən, qəsdən törədilməklə baş verir. Bununla da, ölkəmizin ekologiyasına, dövlətimizin büdcəsinə milyonlarla manat ziyan dəyir.





Meşə yanğınlarının çox ciddi və təhlükəli olması hər bir vətəndaşın daim diqqətində qalmalıdır.

Yanğınların qarşısının alınmasında xidmətləri olanlar alqışa layiqdirlər. Təsadüfi deyil ki, ETSN rəhbərliyi ötən günlər ərzində Hirkan Milli Parkında və Yardımlı meşələrində baş verən yanğınların qarşısının alınmasında sözün həqiqi mənasında qəhrəmanlıq göstərən, alovun geniş ərazilərə yayılmasına imkan verməyən hər kəsə, xüsusilə də FHN-in yanğınsöndürənləri - Rza Xudiyevə, Müsəddiq Əsədova, Seymur Qaraşova, Zahid Rəhimova, Emil Kərimova, Rüstəm Quliyevə, Nail Əbilova, Cabir Babaşova, Şahin Cəfərova və Qabil Nemətova, Lənkəran rayonun Təngivan, Lerik rayonunun Bobla və Ancəqev, Yardımlı rayonunun Bərcan, Ləziz, Çanaqbulaq, Şıxlar, Porsoba, Alaşar, Buravar, Masallı rayonunun Züvand, Yelağacı kəndlərinin sakinlərinə təşəkkür edib.

Azərbaycan öz füsunkar gözəlliyi, zəngin təbii sərvətləri, al-əlvan florası və faunası ilə bütün dünyada şöhrət qazanmışdır. Respublikamızın meşə fondu sahəsi 1213 min hektar olmaqla, ümumi ərazinin 14 faizini təşkil edir. Ümumi meşə ərazilərinin 49 faizi Böyük Qafqazın, 34 faizi Kiçik Qafqazın, 15 faizi Talış dağlarının, 2 faizi isə Aran zonasının payına düşür. Burada 125 fəsiləyə və 930 cinsə daxil olan bitkilərin 4500 növü yayılmışdır. Bunlardan 48 fəsiləyə, 135 cinsə mənsub olan 450 növ ağac və kollar respublikamızın meşələrində bitir. Meşələrimizdə 1536 cinsə aid olan 150 növ yabanı meyvə bitkiləri mövcuddur. Bu bitkilərdən min tonlarla (adi qoz, alma, armud, zoğal, alça, əzgil, fındıq, xurma, yemişan, şabalıd və s.) yabanı meyvə məhsulu toplanır.

Bəli, ana təbiətin xalqımıza bəxş etdiyi füsunkar gözəlliklərdən biri də bütün canlılar üçün həyat mənbəyi olan meşələrimizdir. Meşələr təmiz havası, bol oksigen zənginliyi, fauna və flora gözəlliyi ilə hər bir kəsin rahatlıq və sərbəstlik məkanı sayılır.

Lakin təəssüflər olsun ki, bəzən insanlar həyatları üçün mühüm əhəmiyyət kəsb edən meşələrin qədrini bilmir, yanğın təhlükəsizliyi qaydalarına əməl etmir, bununla da, meşələrimizi yanğın təhlükəsi qarşısında qoyurlar. Halbuki meşələrdən bəhrələnməklə, onun nemətlərindən istifadə etməklə yanaşı, təbiətin bu füsunkar nemətini qorumaq, onu gələcək nəsillərə ərməğan etmək hər bir vətəndaşın borcudur.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***